Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

*Qars müqaviləsi – 95*

# Behbud ağa Şahtaxtinski və Qars müqaviləsi

## Naxçıvanın statusunun beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də indiki dövrdə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir

*Əvvəli ötən sayımızda*

**Müqaviləyə görə, Naxçıvan ərazisinin Türkiyə ilə sərhədi Arazdəyən stansiyasına qədər 11 km uzunluğunda müəyyən edilmiş, İranla sərhədi isə 176 km uzunluğunda, yəni 1828-ci il Türkmənçay müqaviləsində müəyyən olunduğu kimi dəyişilmədən saxlanılmışdır.**

Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinə aid olan İğdır vilayətinin Aralıq-Dilucu məntəqəsi ilə Naxçıvanın Sədərək kəndi arasından keçən Araz çayı vasitəsilə sərhəd təşkil edən həmin 11 kilometrlik məsafə mühüm strateji əhəmiyyətə malik olduğu üçün XX əsrin əvvəllərində istiqlal savaşı dövründə Mustafa Kamal Atatürk tərəfindən İran hökumətindən qızıl pul ödənilməklə savaşsız olaraq alınmışdır. Bu fakt Atatürkün Azərbaycana və onu ayrılmaz parçası olan Naxçıvana, bütövlükdə türk birliyinə münasibətini parlaq şəkildə ifadə edir. Atatürkün aşağıdakı uzaqgörən sözləri də həmin münasibətləri bir daha təsdiqləyir: "Naxçıvan türk dünyasının qapısıdır. Onu qorumaq lazımdır".

Sərhədlər müəyyən olunarkən 1868-ci ildə Qafqaz Hərbi Dairəsi tərəfindən nəşr edilmiş İrəvan quberniyasının Naxçıvan, Şərur-Dərələyəz və Ordubad qəzalarının coğrafi-geoloji xəritəsi əsas götürülmüşdür.

Qars konfransı Naxçıvanın gələcək siyasi-hüquqi statusunu müəyyənləşdirdi. B.Şahtaxtinskinin bununla bağlı elan edilən bəyanatında deyilir ki, "Naxçıvan vilayəti "Muxtar xalq sovetləri respublikaları sırasına daxil edilir və bununla yanaşı Azərbaycanın himayəsi altına keçir; gənc respublikanın özünün XKS, Azərbaycanın isə yeni dövlətdə nümayəndəsi olacaqdır".

Müqavilənin 20-ci maddəsi Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri arasında bağlanan bu müqavilənin təsdiq edilməli olduğunu, təsdiqnamələrin mübadiləsini tez bir müddətdə İrəvanda həyata keçirməyi nəzərdə tuturdu. Həmin maddədə yazılır: "Türkiyə, Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri arasında bağlanan bu Müqavilə ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanlarının mübadiləsi ən qısa bir vaxt ərzində İrəvanda olacaqdır".

Müqavilə Azərbaycan SSR MİK tərəfindən 3 mart 1922-ci ildə, Türkiyə BMM tərəfindən 16 mart 1922-ci ildə, Ermənistan SSR MİK tərəfindən 20 mart 1922-ci ildə, Gürcüstan SSR MİK tərəfindən 14 iyun 1922-ci ildə ratifikasiya edildi. RSFSR-in iştirakı ilə ratifikasiya fərmanlarının mübadiləsi 11 sentyabr 1922-ci ildə İrəvanda keçirildi və həmin vaxtdan da qüvvəyə mindi. Qars müqaviləsinin əsas məzmunu tərəflərin bir-birlərinin suverenliklərini, ərazi toxunulmazlığını tanımaqdan, hər hansı mübahisəli məsələlərin dinc yolla həll edilməsi üçün bütün imkanlardan istifadə etmələrindən ibarətdir.

Qars müqaviləsinin bir çox bəndləri Moskva müqaviləsi ilə səsləşir. Əsas fərq isə Türkiyə ilə Ermənistan sərhədlərinin, habelə Ermənistanla Azərbaycan sərhədlərinin dəqiq müəyyənləşdirilməsindən ibarətdir. Qars müqaviləsinin tarixi əhəmiyyəti ondan ibarətdir ki, bu müqavilə XX əsrin Türkiyə ilə Azərbaycan üçün verdiyi çox mühüm sənəd idi. O, nəinki Türkiyə üçün böyük təhqir olan Sevr müqaviləsini iflasa uğratdı, habelə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında münasibətləri tənzimlədi. Qars konfransından sonra Atatürk demişdi ki, "Qars müqaviləsi ilə bizim Şərqdəki faktiki vəziyyətimiz hüquqi norma almışdır və bu müqavilə Sevr müqaviləsinin tətbiq olunmazlığını sübut edən amillərdən biridir, "erməni məsələsi" deyilən bu məsələ isə özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır".

Beləliklə, Türkiyə dövlətinin köməyi ilə və mahir diplomat B.Şahtaxtinskinin siyasi gedişləri nəticəsində Moskva və Qars kimi beynəlxalq müqavilələrdə Naxçıvanın taleyi həll olunmuşdur.

Zaqafqaziya Diyar Komitəsinin 12 dekabr 1922-ci il tarixli qərarı ilə Naxçıvan muxtariyyət vahidi kimi Azərbaycanın ayrılmaz tərkib hissəsi elan edildi.



Bu müqavilənin əhəmiyyətindən və B.Şahtaxtinskinin rolundan danışarkən müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev qeyd etmişdir ki: "Əgər Azərbaycan Rusiya Federasiyası, Ermənistan, Gürcüstan respublikaları ilə və Türkiyə ilə 1921-ci ilin oktyabrın ayında Qars müqaviləsini imzalayıbsa və Azərbaycanın adından Behbud ağa Şahtaxtinski Qarsda bu müqaviləni imzalayıbsa, deməli, o vaxt Azərbaycan Respublikası öz müqəddəratını həll etmək yolunda çox müstəqil olubdur. Biz bunu unutmamalıyıq, tariximizi qaraltmamalıyıq.

Hesab edirəm ki, Sovetlər İttifaqı dağılan zaman və Naxçıvana qarşı yenə də xəyanətkar əllər uzanan zaman biz bu müqavilələrin Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunu dərk edə bildik".

Qars müqaviləsinin maddələrinin həyata keçirilməsi ilə bağlı məsələləri həll etmək üçün 1922-ci il fevralın 1-də Tiflisdə Cənubi Qafqaz (Zaqafqaziya) - Türkiyə konfransı öz işinə başladı. Konfransda Azərbaycanı B.Şahtaxtinski və Teymur Əliyev təmsil edirdilər. Onlar AK(b)P MK Rəyasət Heyətinin 1922-ci il 10 fevral tarixli iclasında təyin edilmişdilər. Konfransda üç Cənubi Qafqaz respublikası, Rusiya və Türkiyə arasında konsulluq, hüquqi yardım, poçt-teleqraf, dəmir yolu haqqında konvensiyalar bağlandı.

Beləliklə, Türkiyə dövlətinin köməyi və Behbud ağa Şahtaxtinskinin diplomatik gedişləri sayəsində Qars beynəlxalq müqaviləsi ilə Naxçıvan diyarı Azərbaycanın tərkibində muxtar ərazi kimi qəbul edildi. Bu müqavilə ilə Rusiya, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanımış və ona beynəlxalq-hüquqi təminat vermişlər. Naxçıvanın muxtariyyət statusu keçmiş SSRİ tərkibində son ifadəsini Azərbaycan SSR MİK-in 9 fevral 1924-cü il tarixli dekretində tapdı.

Heydər Əliyev hesab edirdi ki, "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti əldən getmiş başqa torpaqların qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanla, Azərbaycanla Türkiyənin sərhədi üçün tarixi bir hadisədir. O sərhəd 1921-ci ildə həmin Qars müqaviləsi ilə yaranıbdır. 1992-ci ildə Ümid körpüsünün yaranmasının da Türkiyə ilə Azərbaycan arasındakı əlaqələrdə nə qədər böyük rol oynadığını artıq hamı görür".

Bu gün tarixi saxtalaşdırmaqla məşğul olan erməni alim və siyasətbazları və tarixçiləri özləri yazırlar ki, Qars müqaviləsinin imzalanması ilə bütün müqavilələr qüvvədən düşmüş, Türkiyə qoşunları 1921-ci ilin aprelində Aleksandropol qəzasını tərk etmişdir.

Xatırladırıq ki, 1921-ci ilin noyabrında İrəvanda Qars müqaviləsinin təntənəli təqdimat mərasimi keçirilmişdir.

Son vaxtlar ermənilərin Naxçıvanla bağlı ərazi iddiaları daha da güclənib. Onlar İrəvanda Naxçıvan ermənilərinin milli şurasını (1999-cu ilin sentyabrından) yaradıblar. Şura ya Ermənistanın əslən Naxçıvandan olan tanınmış adamları daxildir. Qəbul edilmiş sənəddə bildirilir ki, indiki Naxçıvan MR-in ərazisi 1828-1840-cı illərdə Ermənistan vilayəti, 1849-1918-ci illərdə İrəvan quberniyası, 1918-1920-ci illərdə isə Ermənistan Respublikasına daxil idi. 1921-ci ildə Türkiyə və Zaqafqaziya dövlətləri arasında imzalanmış sənədə (Qars müqaviləsinə) əsasən, Naxçıvan zorla Ermənistandan ayrılmış və 1924-cü ildə Azərbaycanın tərkibində Muxtar Respublika elan edilmişdir. 1989-cu ildə ermənilər respublikadan köçmüşlər.

Sənəddə bildirilir ki, Ermənistan rəhbərliyi indiyədək vətəndən məhrum edilmiş Naxçıvan ermənilərini dəstəkləməyib, onların hüquqlarının qorunması məsələsini qaldırmayıb. Sənədin müəllifləri bildirirlər ki, yaranmış vəziyyətdə Naxçıvan erməniləri siyasi və iqtisadi hüquqlarını yaratdıqları orqan və strukturlar vasitəsilə qorumaq məcburiyyətindədirlər.

Bəyanatın müəllifləri 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinin Naxçıvana aid olan bəndlərini qeyri-qanuni sayırlar. Şura respublika parlamentini Qars müqaviləsinin, Rusiya Dumasının isə Rusiya-Türkiyə (16 mart 1921-ci il) müqaviləsinin Ermənistana aid hissəsinin qüvvədən düşməsini bəyan etməyə çağırır. Şura respublika prezidenti, hökuməti və parlamentinə BMT, ATƏT və beynəlxalq hüquq-müdafiə təşkilatları ilə birlikdə 400 minə yaxın ermənin tarixi vətənə qayıtması üçün şəraitin yaradılması, habelə onlara doğma yerləri ziyarət etmək imkanının verilməsi məsələsini qaldırmağı təklif edir. Şura üzvlərinin fikrincə, bu məsələləri Azərbaycanla diplomatik əlaqələr gedişində həll etmək lazımdır.

Daha sonra Ermənistan parlamenti Rusiyanın Dövlət Duması, Türkiyənin Böyük Millət Məclisi və BMT-yə müraciət imzalayıblar. Müraciətdə Naxçıvanın "əzəli və qədim erməni torpağı" olduğu bildirilmiş "Naxçıvan problemi" həll edilməyincə Dağlıq Qarabağ münaqişəsinin də bir nəticə verməyəcəyi vurğulanmışdır.

Erməni məkrli siyasətinə tutarlı cavabı hələ vaxtilə ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında fərmanında vermişdi: "Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci ilin martında imzalanmış Moskva müqaviləsində, Rusiya, Azərbaycan, Gürcüstan, Ermənistan və Türkiyə arasında 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsində təsbit edildi. Naxçıvanın statusunun ilk beynəlxalq müqavilədə əks olunması həm o dövrdə, həm də Azərbaycanın indiki dövründə böyük siyasi əhəmiyyət kəsb edən bir fakt kimi qiymətləndirilməlidir".

Bütün bunlar isə Qars müqaviləsinin tarixi əhəmiyyətini artırmaqla B.Şahtaxtinski kimi mahir diplomatın nə qədər uzaqgörən siyasətçi olduğunu bir daha sübut edir.



■ **Fizuli İbrahimzadə**
**Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasının Humanitar fənlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***